

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 11 (20.912)

*21 yanvar 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Qanlı 20 Yanvar hadisələrindən 24 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər Xiyabanına gəldi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.



# Mübarizlik və qəhrəmanlıq tarixi – 20 Yanvar

Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 24 il ötür. 1990-cı il yanvarın 20-də keçmiş sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misligörünməmiş qətliam törətmişdir. Bu qanlı cinayət insanların azadlıq eşqini söndürə bilməmiş, xalqımız qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşmuşdur.

Hər il 20 Yanvar faciəsi ölkəmizin bütün güşələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yad olunur, şəhər və rayonlardakı şəhidlər xiyabanları ziyarətgaha çevrilir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanına gəlmişdir.

Ali Məclisin Sədri Şəhidlər Xiyabanındakı "Ana abidəsi"nin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Naxçıvan Qarnizonunun hərbi orkestrinin ifasında Dövlət himni səslənmişdir.

Ali Məclisin Sədri Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə öz canlarından keçərək şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm və təhsil müəssisələrinin, bankların, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və onun yerli təşkilatlarının, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin, mədəniyyət, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, şəhər sakinləri şəhid məzarları önündən keçərək onların əziz xatirəsini ehtiramla yad etmişlər.

20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz olaraq həbs edilmiş, nəticədə, insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nin tələbləri kobudcasına pozulmuşdur.

Bakıdakı 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin ittiham etmiş, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya kimi pisləmişdir. Hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə ulu öndərin bu cür bəyanatla çıxış etməsi bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahi şəxsiyyətlər atırlar.







Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şəraf və ləyaqət zirvəsidir. Ulu öndər Heydər Əliyev 1990-cı ilin 20 Yanvar gecəsi məhz belə bir zirvəni fəth edib əbədiyaşarlıq hüququ qazanan Vətən oğullarının fədakarlığını yüksək qiymətləndirərək demişdir: ***"20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün, qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır".***

20 Yanvar faciəsinə ilk dəfə ulu öndərimiz tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində siyasi qiymət verilmişdir. Ümummilli liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul olunmuşdur. Qərarda 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması öz əksini tapmışdı. Bundan əlavə, 1992-ci il yanvarın 13-də "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin Bəyanatı" qəbul olunmuşdur.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra faciəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilmişdir. 1994-cü ilin fevral ayında keçirilən Milli Məclisin xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirilmiş, müzakirələrin yekunu olaraq həmin ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul edilmişdir.

***"Şəhidlər ölmür, onlar bizim qəlbimizdə əbədi yaşayırlar"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Bakı şəhərində şəhidlərin xatirəsinə xüsusi memorial kompleks ucaldılmış, Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanı yenidən qurulmuşdur. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar, "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2011-ci il 19 yanvar tarixli fərmanları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinə göstərilən ehtiramın bariz ifadəsidir.

Sovet qoşunlarının Bakıda törətdikləri qanlı cinayətlər eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumu ilə müşayiət olunmuşdur. Yanvarın 18-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olunmuş, Sədərək və digər sərhəd kəndlərinə silahlı hücumlar intensiv xarakter almışdı.

*Ardı 2-ci səhifədə*

Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud sürətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da “Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında” tarixi Qərar qəbul etmişdir. Bu qərara əsasən, Naxçıvan MSSR Sovet imperiyasının tərkibindən çıxmışdır. 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə erməni silahlı dəstələrinin hücumları başlamış və bununla da, 20 Yanvar faciəsinin ilk qanlı səhifəsi yazılmış, ilk şəhidlər verilmişdir. Buna baxmayaraq, naxçıvanlılar düşmənin önündə mərdliklə dayanmış, qəhrəmancasına mübarizə aparmış, şəhidlər versə də, Naxçıvanı qoruyub saxlamışlar.



Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəf tarixidir. Hər il faciənin ildönümündə milyonlarla insan şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edərkən ümummilli liderimiz Heydər Əliyevin bu fikirləri bir daha yada düşür: ***“20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır”.***

Saat $12^{00}$-də şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin ildönümü ilə bağlı mərasim keçirilmişdir



20 Yanvar faciəsinin 24-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda anım tədbiri keçirilmişdir.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Baş konsul Əli Əlizadə çıxış edərək 20 Yanvar faciəsi barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, 1990-cı il yanvarın 20-si xalqımızın azadlıq və mübarizə tarixinə əbədi hakk olunmuşdur. Müstəqillik uğrunda aparılan mübarizəni yerindəcə boğmaq, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına şərait yaratmaq üçün Azərbaycan vətəndaşları amansızcasına qətlə yetirilmişlər. 20 Yanvar faciəsinə ilk dəfə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyini bildirən Baş konsul demişdir ki, Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparmış şəhidlərimizin əziz xatirəsi daim qəlblərdə yaşayacaqdır.

Təbriz şəhər sakini, folklorşünas alim Böyükbəy Ələkbəroğlu çıxış edərək demişdir ki, 20 Yanvar Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə tarixinin şərəfli səhifəsidir.

Sonra 20 Yanvar faciəsindən bəhs edən sənədli film nümayiş olunmuş, iştirakçılara 20 Yanvar faciəsini əks etdirən əyani vəsaitlər paylanmış, hazırlanmış fotostendlərə baxış olmuş, ehsan süfrəsi açılmışdır.

Anım tədbirində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri, Şərqi Azərbaycan Valiliyi və Təbriz şəhər fərmandarlığının nümayəndələri, Türkiyə Respublikasının Təbrizdəki Baş Konsulluğunun əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

# Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir



Azərbaycan xalqının yaddaşına qəhrəmanlıq salnaməsi kimi yazılmış 20 Yanvar faciəsi 24 ildir ki, böyük ehtiramla yad olunur. Xalqını və dövlətini sevən, dövlətçiliyimizi və ölkəmizin ərazi bütövlüyünü qorumağı özünün vətəndaşlıq borcuna çevirən hər bir azərbaycanlı müqəddəslik ünvanlarına – şəhidlərimizin uyuduğu xiyabanlara üz tutur, azadlığımız uğrunda öz canlarından keçərək şəhidlik zirvəsinə ucalan eloğullarımızı ehtiramla yad edirlər.

Yanvarın 20-də saat $12^{00}$-də Azərbaycanın bütün ərazilərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, nəqliyyat dayanmış, avtomobillərdən səs siqnalları verilmişdir.

Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilmişdir.

**Xəbərlər şöbəsi**

# Yanvar hadisələri ordusu olmayan ölkədə törədilmiş cinayət idi

***Artıq 24 ildir, yeni ilin ilk ayında böyük qürur hissi ilə qeyd etdiyimiz bir tarix var – 20 Yanvar tarixi. Bu tarix xalqımızın uzun illərdən bəri uğrunda mübarizə apardığı azadlıq duyğularını ifadə və təsdiq etdiyi gün kimi yaddaşımıza yazılıb. 20 Yanvar faciəsi yaddaşımızda qara və hüznlü bir səhifə kimi xatırlansa da, bu səhifənin digər üzü qürur, şərəf və fəxarət güzgüsüdür. Bu güzgüdə yaşından, cinsindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, ölkəmizin azadlığı uğrunda canını VƏTƏN adlı müqəddəs məmləkət üçün fəda etmiş bu insanları xatırladıqca, elə AZADLIĞın özünü görürük.***

24 il bundan əvvəl Cənubi Qafqazın hazırkı lider ölkəsinin məhvi üçün hər şey ölçülüb-biçilmişdi: paytaxtına qoşun yeridilmiş, vətəndaşları güllələrana tutulmuş, iki muxtar regionuna hücumlar başlamış, şimal və cənub ərazilərinin zəbti üçün bütün “yararlı planlar” işə salınmışdı. Bir ölkəyə hücumun bu cür rahat və qarşısıalınmaz olması, istənilən hərbi gedişlərin “mükəmməl” şəkildə yerinə yetirilməsi o zaman mümkün olur ki, həmin ölkənin keşiyində duracaq ordusu olmasın. Necə deyərlər, ordun yoxsa, yurdun da yoxdur!

Tarixdən məlumdur ki, müasir dövrümüzə xalqımız enişli-yoxuşlu yollar keçərək gəlib çıxıb. Bu həyat təqvimində elə tarixi dövrlər də olub ki, həmin dövrlərə yazılmış hadisələr qan yaddaşımız kimi xatırlanır. Tarix boyu Azərbaycana edilən hücumlarda əsas məqsəd bu ölkənin yeraltı və yerüstü sərvətləri, əlverişli iqlimi, strateji ərazidə yerləşməsi və sair olub. Ancaq bu hücumlardan daha çox zərbə aldığımız üç tarixi gün, qeyd etdiyimiz kimi, qan yaddaşımıza yazılıb və hər üçü ötən əsrdə baş verib. 1918-ci ilin 31 Mart Soyqırımı dünya tarixində ən ağır və kütləvi soyqırımı kimi xatırlanır. O zaman ölkəmizin paytaxtı da daxil olmaqla bütün böyük şəhərlərin əksəriyyətində kütləvi qırğınlar təşkil edilmiş, onminlərlə insan soyqırımına məruz qalmışdır. Hadisədən 3 ay sonra yeni müstəqilliyini elan etmiş Azərbaycanda Milli Ordu yaradılmasına başlanmışdır. Yəni işğalçı qüvvələr ordusu olmayan bir məmləkətdə soyqırımı törətmişdilər. İstər 1990-cı ilin yanvar, istərsə də 1992-ci ildə Xocalıda baş vermiş soyqırımı hadisələrinin törədilməsi bu hadisələrin qarşısını alacaq mükəmməl ordu birləşmələrinin olmaması ilə mümkün olmuşdu.

1990-cı ilin 20 Yanvar hadisələri sovet dövlətinin xalqımıza qarşı həyata keçirdiyi hərbi cinayət idi. Bu vəhşi terror aktı ona görə törədilmişdir ki, xalq öz milli kimliyinə qayıtmasın, öz müstəqilliyini və azadlığını tələb etməsin. O xalq ki, II Dünya müharibəsində “topdağıtmaz imperiya”nın hərbi texnikalarının yanacaq ehtiyacının 70 faizini təmin edirdi, yüzminlərlə nümayəndəsi bu müharibədə iştirak edərək canını fəda edirdi. Və imperiya bütün bunların əvəzini xüsusi təyinatlı dəstələrin və daxili qoşunların Bakıya yeridilməsi ilə “ödədi”. Kommunist diktaturası o zamankı Çexoslovakiyaya, Macarıstana, Əfqanıstana qarşı həyata keçirdiyi hərbi müdaxiləni müttəfiq respublikalarından biri olan Azərbaycanda da təkrarlamaqdan çəkinmədi. Sovet rəhbərliyi tarixən mövcud olan erməni kartından burada da istifadə etməyi bacardı. Azərbaycana yeridilən ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən digər ermənilər daxil edilmişdi. Sonralar məlum olacaqdı ki, Bakıya yeridilmiş qoşun kontingentinə “döyüş tapşırığını” yerinə yetirmək üçün xüsusi psixoloji hazırlıq da keçilibmiş. Bu psixoloji hazırlıqda qadınlara, uşaqlara, qocalara rəhm edilməmək kimi vəhşi təlimatlar xüsusi yer tuturdu. Millətçilik ədavətinin qızışdırılmasında böyük təcrübəyə malik sovet rəhbərliyi bu əməlini həm də belə sığortalayırdı ki, guya qoşun birləşmələri Bakıda rus və erməni hərbi qulluqçularının ailələrinin “təhlükəsizliyini” qoruyacaq, “millətçi ekstremistlər” tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını alacaqdı. Əslində isə bu, açıq riyakarlıq və ağ yalan idi. Çünki sovet rəhbərliyinin “dəlilləri” hətta həqiqətə yaxın olsaydı belə, Bakıya təpədən dırnağadək silahlandırılmış qoşun göndərməyə ehtiyac yox idi. Ona görə ki, həmin vaxt burada SSRİ Müdafiə Nazirliyinin Bakı Qarnizonunun çoxsaylı hərbi hissələri, hava hücumundan müdafiə qüvvələri var idi, eyni zamanda 4-cü ordunun komandanlığı da Bakıda yerləşirdi. Bu faktın özü bir daha onu sübut edir ki, Azərbaycanda ordu birləşmələri olsa da, bu ordu çörəyini yediyi xalqın yox, marağını qoruduğu imperiyanın planlarını həyata keçirirdi. Bütün bunlara baxmayaraq, 1990-cı il yanvarın 19-da sovet rəhbəri Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının isə 71-ci maddələrini kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin yanvarın 19-da gecə ilə qoşun şəhərə yeridilərək hərbi cinayət törədildi. Fövqəladə vəziyyətin elan edilməsi haqqında məlumat isə növbəti gün radio vasitəsilə əhaliyə çatdırıldı. Artıq gec idi, sovet rəhbərliyinin rəzil və qəddar siması özünü göstərmişdi: tanklar, zirehli transportyorlar Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzmiş, hərbçilər hər yanı amansız atəşə tutmuşdular. Hətta müharibə qanunlarına da məhəl qoyulmayaraq yaralıları aparmağa gələn təcili yardım maşınları və tibb işçiləri atəşə məruz qalmış, böyük bəşəri cinayət törədilmişdir.

Qeyd etmək yerinə düşər ki, həmin vaxt Azərbaycan “böyük Ermənistan” adlı axmaq ideya ilə nəfəs alan mənfur ermənilərin də hücumuna məruz qalmışdı. Sərhəd bölgələri mütəmadi atəş altında saxlanılırdı. Həmin dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına da hücumlar çoxalmış, regionun əsas strateji ərazilərindən biri olan Sədərək rayonu düşmənin əsas hədəf nöqtələrindən birinə çevrilmişdi. 1990-cı il yanvarın 18-də ərazi baxımından muxtar respublikadan aralı düşmüş Kərki kəndi erməni silahlı dəstələri tərəfindən işğal edilmişdi. Yeri düşmüşkən, qeyd edək ki, kəndin işğal edilməsində Ermənistanda dislokasiya olunmuş 7-ci sovet ordusunun hissələrinin də böyük rolu olmuşdu. Burada bir haşiyə çıxaraq qeyd edim ki, Ermənistan mətbuatının yazdığına görə, Sədərək-İrəvan avtomobil yolunun kənarında yerləşən Kərki kəndi hələ də Ermənistanda rəsmi inzibati ərazi kimi qeydiyyata alınmayıb. Bununsa səbəbi ondan ibarətdir ki, düşmənlərimiz Azərbaycanın öz torpaqlarına sahib çıxacağı günün çox da uzaqda olmadığını bilirlər.

Məhz həmin dövrdə muxtar respublikada əhalinin yüksək hünərlik və vətənpərvərlik nümayiş etdirərək Sədərəyi, ümumilikdə isə Naxçıvanı qoruması əsl qəhrəmanlıq idi. Çünki sadə vətəndaşlar hərtərəfli təminata malik hərbi birləşmələrin qarşısına ov tüfəngləri ilə çıxmışdılar. Sonralar Azərbaycan xalqının dahi oğlu, ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, onun təşəbbüsü ilə ilk dəfə Milli Ordumuzun yaradılması istiqamətində atılan tarixi addımlar muxtar respublikanın təhlükəsizliyini təmin etdi, onu qorudu və bugünkü inkişafına vəsilə oldu.

***Ümumiyyətlə, onu vurğulamaq yerinə düşər ki, istər keçmişdə, istərsə də indi bir ölkənin təhlükəsizliyi təmin olunmadan heç bir inkişafdan söhbət gedə bilməz. Azərbaycan tarixində baş vermiş bu hadisələri təhlil etdikcə bir daha onu düşünürsən ki, əgər həmin dövrlərdə Milli Ordumuz olsaydı, bu cür hadisələr də baş verməyəcəkdi. Əlbəttə ki, müharibənin öz qanunları var. Müharibədə yaralanmaq da, ölmək də qaçılmazdır. Ancaq Azərbaycan xalqına qarşı müxtəlif dövrlərdə, eləcə də 1990-cı ilin yanvar hadisələri zamanı həyata keçirilmiş əməliyyatlar hərbi cinayətdir. Cinayət isə cəzasız qalmır. Bu gün düşmənlərimizə ən böyük cəza gündən-günə inkişaf edən Azərbaycan Silahlı Qüvvələridir. Silahlı Qüvvələrimiz indi ölkəmizin azadlığına, müstəqilliyinə, ərazi bütövlüyünə uzanan istənilən əli kəsməyə qadirdir. Şəhidlərimizin qanı bahasına qazandığımız MÜSTƏQİL AZƏRBAYCANIN ərazi bütövlüyü isə Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi, nəyin bahasına olursa-olsun, təmin ediləcəkdir.***

**Səbuhi HƏSƏNOV**

*Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli Fərmanı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət proqramında narkomaniyaya qarşı mübarizə istiqamətində konkret vəzifələr müəyyənləşdirilmişdir.*

# Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir

2013-cü il ərzində Müsadirə Edilmiş Narkotik Vasitələri, Psixotrop Maddələri və Onların Prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 28 qram 795 milliqram heroin, 525 qram 461 milliqram həşiş qətranı, 295 qram 49 milliqram tiryək, 8 qram 51 milliqram marixuana yandırılaraq məhv edilmişdir. Qanunsuz dövriyyədən ümumi çəkisi 8 kiloqram 99 qram 841 milliqram olmaqla, 26 qram 402 milliqram heroin, 297 qram 0,57 milliqram tiryək, 7 kiloqram 249 qram 482 milliqram marixuana, 526 qram 9 milliqram həşiş aşkarlanaraq götürülmüşdür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qanunsuz dövriyyədən 7 kiloqram 999 qram 122 milliqram artıq narkotik vasitə götürülmüşdür.

Muxtar respublikada narkotiklərin qanunsuz dövriyyəsinə və qaçaqmalçılığına qarşı aparılan mübarizə nəticəsində 2012-ci illə müqayisədə cinayət hadisələrinin sayında artım olmamış, 2013-cü ildə narkomaniya ilə bağlı 4 cinayət hadisəsi və 4 inzibati fakt qeydə alınmışdır. İl ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 1 cinayət hadisəsi və 4 inzibati fakt aşkar edilərək, ümumilikdə, 7 kiloqram 249 qram 482 milliqram qurudulmuş marixuana qanunsuz dövriyyədən çıxarılmışdır. Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən də narkotik vasitələrin qaçaqmalçılığına qarşı mübarizə tədbirləri davam etdirilmiş, 2 cinayət faktı üzrə aşkar edilmiş 26 qram 402 milliqram heroin, 525 qram 911 milliqram həşiş, 295 qram 67 milliqram tiryək qanunsuz dövriyyədən çıxarılmışdır. Hesabat dövründə 139 kiloqram əkinəyararlı çətənə toxumunun, müvafiq orqanlardan icazə sənədi olmayan 20 min 582 ədəd psixotrop tərkibli dərman preparatlarının muxtar respublikaya gətirilməsinin qarşısı alınmışdır.

Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, muxtar respublikaya qeyri-qanuni yollarla narkotik maddələrin gətirilmə kanallarının və bu işdə iştirak edən şəxslərin aşkar olunması, onların fəaliyyət dairəsinin müəyyənləşdirilməsi istiqamətində müvafiq əməliyyat tədbirləri həyata keçirilmiş, bu tədbirlər nəticəsində 1 qram 387 milliqram tiryək və 989 milliqram həşiş aşkar edilərək götürülmüş və cinayət işi başlanılmışdır. Narkomaniya ilə əlaqədar Naxçıvan Muxtar Respublikası məhkəmələrinin icraatında 5 nəfər barəsində 4 cinayət işi olmuş, həmin cinayət işlərinə baxılaraq təqsirləndirilən şəxslər barəsində ittiham hökmü çıxarılmışdır. Bundan başqa, məhkəmələr tərəfindən 4 nəfər barəsində 3 inzibati xəta üzrə işə baxılmışdır.

Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserində xəstəliyin profilaktikası və dispanserizasiyası, sərxoşluğun müayinəsi, ambulator və məhkəmə narkoloji rəyinin verilməsi diqqət mərkəzində saxlanılmışdır.

Narkomaniya və narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə tədbirləri çərçivəsində gənc nəslin asudə vaxtının səmərəli təşkili vacib məsələdir. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirlikləri, eləcə də narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan digər orqanlar tərəfindən əsas diqqət profilaktik tədbirlərin həyata keçirilməsinə yönəldilmiş, zərərli vərdişlərin qarşısının alınması məqsədilə müxtəlif bilik və idman yarışları təşkil edilmiş, gənclərin idman məktəblərinə və federasiyaların məşqlərinə cəlb edilməsi yolunda tədbirlər davam etdirilmişdir. Nəticədə, yetkinlik yaşına çatmayanlar və ya qadınlar arasında narkotiklərlə bağlı cinayət və inzibati məsuliyyətə cəlb edilən olmamış, muxtar respublikanın təhsil müəssisələrində narkotik vasitələrdən istifadə faktı aşkarlanmamışdır.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiya Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələrini rəhbər tutmaqla gənclər arasında sağlam həyat tərzinin formalaşması və asudə vaxtın səmərəli təşkil edilməsi istiqamətində aidiyyəti dövlət orqanlarının və ictimaiyyətin səylərini əlaqələndirərək narkomaniyaya qarşı mübarizə tədbirlərini bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası***

# Daxili İşlər Nazirliyinin yaradılmasının 90 illiyi ilə əlaqədar tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin yaradılmasından 90 il ötür. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində tədbir keçirilmişdir. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri düzmüş, Heydər Əliyev Muzeyini ziyarət etmişlər.*

Daxili İşlər Nazirliyində davam etdirilən tədbiri daxili işlər naziri, polis general-leytenantı Əhməd Əhmədov açaraq məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, 18 yanvar 1924-cü ildə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumunun qərarı ilə Naxçıvan Daxili İşlər Şöbəsinin nəzdində Naxçıvan Daxili İşlər Komissarlığı yaradılmışdır.

Azərbaycan polisinin, o cümlədən Naxçıvan polisinin əsl inkişafı, milliləşməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra daxili işlər orqanlarına dövlət qayğısı güclənmiş, əməkdaşların təlim-tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə xüsusi önəm verilmişdir.

Bildirilmişdir ki, son illərdə göstərilən yüksək dövlət qayğısı Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının fəaliyyətində böyük dönüş yaratmağa imkan vermişdir. Belə ki, nazirliyin maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması istiqamətində lazımi tədbirlər həyata keçirilmiş, nazirlik aparatının inzibati binası da daxil olmaqla bütün ərazi polis orqanlarının inzibati binaları yenidən qurulmuş, xidməti avtomobillər ən yeni model xarici markalı avtomobillərlə əvəzlənmiş, 81 polis sahə məntəqəsi tikilib istifadəyə verilmişdir. Əməkdaşların məişət-sosial problemlərinin həlli də diqqətdə saxlanılaraq Daxili Qoşunların Naxçıvan Alayında xidmət edən zabit və gizirlərin ailələrinin mənzil-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində dövlət proqramı çərçivəsində 5 mərtəbədən, 60 mənzildən ibarət, lazım olan avadanlıqlarla tam təchiz olunmuş yeni yaşayış binası tikilib istifadəyə verilmişdir. Bundan əlavə, 5 mərtəbə, 45 mənzildən ibarət yeni yaşayış binası və hərbi qulluqçuların istifadəsində olan 2 mərtəbədən, 8 mənzildən ibarət yaşayış binası 1 mərtəbə də əlavə olunmaqla əsaslı təmir edilərək yaxın gələcəkdə istifadəyə veriləcəkdir. Bu yöndə ardıcıl olaraq bir çox polis ailələri də yaşayış mənzilləri ilə təmin edilmişlər.

Həyata keçirilən bu kimi tədbirlər muxtar respublikanı dünyanın ən təhlükəsiz regionlarından birinə çevirmişdir.

Tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edən nazir gələcək fəaliyyətlərində polis işçilərinə uğurlar arzulayaraq bildirmişdir ki, Naxçıvan polisi bundan sonra da göstərilən etimadı doğrultmaq üçün bütün qüvvə və vasitələri səfərbər etməklə dövlətçiliyin qorunması, milli təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, torpaqlarımızın azad olunmasında da andına sadiq qalacaq, bu uğurda həyatını belə əsirgəməyəcək, “Muxtariyyət ili”ndə cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında qazandığı uğurları daha da artıracaqdır.

Tədbirdə ehtiyatda olan polis polkovniki Yadulla Əliyev, polis leytenantı Samirə İbrahimova, nazir müavini, polis general-mayoru Qaçay Quliyev çıxış etmişlər.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanlarına layiq görülmüş polis işçilərinə nişanlar və vəsiqələr təqdim edilmiş, nazirlik tərəfindən polis orqanlarında səmərəli fəaliyyətlərinə görə polis işçilərindən bir qrupuna vaxtından əvvəl növbəti xüsusi rütbə, fəxri fərmanlar, “Əla xidmətlərə görə” döş nişanı, 104 nəfərə pul mükafatı verilmiş, 44 nəfərə təşəkkür elan olunmuşdur. 10 nəfər polis veteranı da pul mükafatı almışdır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində muxtar respublikada ilk ədliyyə orqanının yaradılmasının 90-cı ildönümü münasibətilə tədbir keçirilib.***

# İlk ədliyyə orqanının yaradılmasından 90 il ötür



Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyaraq Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Ədliyyə Nazirliyində davam etdirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında ilk ədliyyə orqanı 1924-cü il yanvarın 18-də yaradılıb. Xalq Ədliyyə Komissarlığı adlanan bu qurum 30 mart 1946-cı ildən Ədliyyə Nazirliyinə çevrilib. Lakin qısa müddətdə nazirliyin səlahiyyətləri məhdudlaşdırılaraq başqa orqanlara verilib. 1969-cu ildə ulu öndər Heydər Əliyevin respublikamıza rəhbər seçilməsindən sonra digər sahələrdə olduğu kimi, ədliyyə sisteminin inkişafına da xüsusi diqqət göstərilib, nazirlik yenidən təsis edilərək onun vahid strukturu formalaşdırılıb, ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaradılıb.

Qeyd olunub ki, bu gün muxtar respublikada ədliyyə sahəsində sistemli və ardıcıl şəkildə həyata keçirilən islahatlar əhalinin yüksək hüquqi təminatına xidmət etməklə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin yeni dövrün tələbləri səviyyəsində qurulmasını da şərtləndirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 25 aprel tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi haqqında” Əsasnamə təsdiq edilib. Əsasnaməyə əsasən, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ədliyyə sahəsində vahid dövlət siyasətini və tənzimlənməsini həyata keçirən, hüquq-mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır. Muxtar respublikanın ədliyyə sistemində həyata keçirilən islahatlar əhalinin yüksək hüquqi təminatına və ədliyyə orqanının fəaliyyətinin yeni dövrün tələbləri səviyyəsində qurulmasına hesablanıb. 2007-ci ildə nazirliyin tarixində ilk dəfə olaraq Penitensiar Xidmət yaradılıb. 2011-ci il aprel ayının 18-də Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin yeni inzibati binaları istifadəyə verilib, hər iki binada müasir iş şəraiti yaradılıb.

Sonra nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Emin Səfərovun, Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmovun, Culfa Rayon Qeydiyyat Şöbəsinin rəisi Ramazan Nəcəfovun, Penitensiar Xidmətin mühafizə taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Rəşad Cəlilovun çıxışları olub. Çıxışlarda qeyd edilib ki, “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 yanvar 2014-cü il tarixli Sərəncamı ədliyyə orqanlarına göstərilən diqqət və qayğının bariz nümunəsidir. 90 yaşını qeyd edən ədliyyə orqanlarının kollektivi bundan sonrakı fəaliyyətində də öz işini muxtar respublika rəhbərinin müəyyənləşdirdiyi vəzifələrin icrası istiqamətində quracaqdır.

Sonda “Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı oxunub. Bu sərəncam əsasında təltif edilən əməkdaşlara nişanlar təqdim olunub. Bir qrup əməkdaş isə nazirliyin fəxri fərmanı və pul mükafatları ilə təltif edilib.

**Xəbərlər şöbəsi**

*Yanvarın 18-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaradılmasının 90 illiyi qeyd olunmuşdur. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət etmiş, abidə önünə tər gül dəstələri düzmüş, Heydər Əliyev Muzeyində olmuşlar.*

# Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaradılmasının 90 illiyi qeyd olunmuşdur

Tədbir Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində davam etdirilmiş, səhiyyə naziri Niyazi Novruzov muxtar respublikamızda səhiyyənin inkişafı barədə çıxış etmişdir. Qeyd olunmuşdur ki, 90 il əvvəl – 1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmış, bununla da, səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulmuşdur. Bu dövrdən etibarən Naxçıvan səhiyyəsi iyirminci əsrin elmi-texniki tərəqqisindən bəhrələnərək əhalinin sağlamlığının əsl mühafizəçisinə çevrilmişdir.

Vurğulanmışdır ki, bu il həm də Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi qeyd olunacaqdır. Bu münasibətlə 2014-cü il muxtar respublikada “Muxtariyyət ili” elan olunmuşdur. Muxtar respublikada Səhiyyə Nazirliyinin yaradılma tarixi muxtariyyətin tarixi ilə üst-üstə düşdüyündən hər bir səhiyyə işçisi üçün ikiqat bayramdır.



Nazir bu əlamətdar bayramlar münasibətilə səhiyyə işçilərini təbrik etmiş, onlara işlərində uğurlar arzulamışdır.

Niyazi Novruzov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə dörd nəfər səhiyyə işçisinə “Naxçıvan Muxtar Respublikasının əməkdar tibb işçisi” fəxri adının verildiyini bildirmiş, onlara fəxri adın döş nişanını və vəsiqəsini təqdim etmişdir. Təltif olunanlar bu qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlıqlarını bildirmişlər.

Bir qrup səhiyyə işçisinə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin fəxri fərmanı, pul mükafatı təqdim olunmuşdur.

Sonra Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva, Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin baş həkimi Alı Əliyev, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının şöbə müdiri Aytən Əhmədova çıxış edərək səhiyyənin inkişafına göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildirmiş, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaradılmasının 90 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik etmişlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikamızda dinamik inkişafın təmin olunması insanların yaşayış səviyyəsini yüksəldib, demoqrafik vəziyyətə müsbət təsir göstərib. Doğulan uşaqların sayının ilbəil artması ilə yanaşı, son illərdə iki və üç uşaq dünyaya gəlməsi halları da çoxalıb. Babək rayon Yarımca kənd sakini Tağı Nağıyevin ailəsi də bu sevinci yaşayıb. Belə ki, bu ailədə üçüz uşaqlar dünyaya gəlib. Məlumat üçün bildirək ki, üçüz uşaqlardan biri qız, ikisi oğlandır. Həkimlərin dediklərinə görə, uşaqların və ananın səhhəti qənaətbəxşdir.***

# Üçüz uşaqları olan ailə ilə görüş keçirilib

Bu münasibətlə Naxçıvan Doğum Mərkəzində tədbir keçirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxışında vurğulayıb ki, muxtar respublikamızda yaşayan ailələrin sosial hüquqlarının təmin olunması, onların yaşayış səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır, onlara göstərilən qayğı günbəgün artırılır.

Səhiyyə naziri Niyazi Novruzov səhiyyənin inkişafından, onun maddi-texniki bazasının möhkəmləndirilməsindən, muxtar respublika əhalisinin sayının artmasında sakinlərin sosial rifahının oynadığı roldan söz açıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova çıxışında ailələrimizin daha da möhkəmlənməsi, onların firavan yaşamaları üçün davamlı tədbirlərin görüldüyünü qeyd edib.



Qeyd edək ki, uşaqların sağlam böyüməsinə nəzarət etmək üçün Səhiyyə Nazirliyi tərəfindən evdə tibbi xidmət məqsədilə həkim və tibb bacısı təyin olunacaqdır.

Tədbir iştirakçıları ailəyə hədiyyələr təqdim ediblər.

Üçüz uşaqların anası Şəbnəm Nağıyeva ailəsi adından onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# 20 Yanvar faciəsi rəsm əsərlərində





Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 20 Yanvar faciəsinə həsr olunmuş sərgi təşkil edilmişdir. Sərgiyə baxışdan əvvəl birliyin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirmişdir ki, illər keçsə də, 20 Yanvar faciəsi heç zaman unudulmur, muxtar respublikada fəaliyyət göstərən rəssamlar öz yaradıcılıqlarında tez-tez bu mövzuya müraciət edirlər.

Azərbaycan Rəssamlar İttifaqının üzvləri Əli Səfərov və Nizami Alıyev çıxış edərək 20 Yanvar faciəsinin Vətənimizin azadlığı və müstəqilliyi uğrunda mübarizə günü kimi tariximizə daxil olduğunu qeyd etmişlər. Vurğulanmışdır ki, xalqımızın qəhrəmanlıq salnaməsi olan 20 Yanvar faciəsi rəsm əsərlərinin dili ilə əks olunmuşdur. Qrafika və rəngkarlıq texnikasında, eyni zamanda dəmir üzərində döymə üsulu ilə hazırlanan bu əsərlər yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsinin formalaşmasında mühüm rol oynayır.

Sonra sərgiyə baxış olmuşdur.

Qeyd edək ki, sərgidə 20 rəssamın 40-dək əsəri nümayiş olunur.

**Xəbərlər şöbəsi**

# Yoldaşlıq görüşü

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş yoldaşlıq görüşü keçirilib. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Federasiyanın sədr müavini Ənvər Məmmədov çıxış edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakı şəhərində törətdikləri faciədən danışıb.

Sonra meydana "Naxçıvan-1" və "Naxçıvan-2" komandaları çıxıblar. Gərgin mübarizə şəraitində keçən oyun "Naxçıvan-1" komandasının 69:66 üstünlüyü ilə başa çatıb.

Daha çox top sehrbazlarının mükəmməl oyunu ilə yaddaqalan yoldaşlıq görüşündən sonra federasiya oyun zamanı fərqlənən basketbolçuları xatirə hədiyyələri ilə mükafatlandırıb.

**✍ Ceyhun MƏMMƏDOV**

# Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram…

***Nə qədər Azərbaycan var, istiqlal fədailəri unudulmayacaq!!!***

…Yaxın və uzaq keçmişdə, xüsusilə də böyük imperiyaların tarixində bu dövlətlərin "şərəf dəftəri"nə qara hərflərlə yazıla biləcək tarixlər çoxdur. Bu gün elə dövlətlər var ki, imperiya sistemi darmadağın olsa da, həmin o tarixlər silinmir, imperiyanın varislərini əbədi qınaq obyektinə çevirir. Çox çətinlik çəkmədən elə əlimizin altında olan kitablardan onlarla belə misal gətirmək olar. Ancaq məqsədimiz oxucularımızın diqqətini bu hadisələrin xronoloji ardıcıllığına yox, əliyalın əhaliyə qarşı törədilən qanlı qətliamların mahiyyətinə çəkməkdir.

Tarixi fürsətlərdən, hiylələrdən və hərbi gücdən yararlanılaraq qurulan bir ölkəni xalqlar məhbəsinə, azad fikir həbsxanasına çevirən imperiyalar üçün bir xalqın ayağa qalxması xüsusən o zaman təhlükəli olur ki, bu xalq çörək yox, azadlıq, hürriyyət istəyir. Xalqlar həbsxanasında məhbus həyatı yaşayan bir xalq üçün azadlığı təmin etmək fövqəldövlətlər üçün arzuolunmazdır. Bu tələb qarşısında imperiyaların atacağı yeganə addım hərbi gücdən istifadə edib azadlıq hərəkatını boğmaq, xalqı azadlığa aparacaq ideologiyanı yayanları barmaqlıqlar arxasına göndərmək, regionda saxta münaqişə ocaqları yaratmaqdır. Bu münaqişə bir ölkənin vətəndaşları arasında da ola bilər, xalqlar arasında da. Yetər ki, azadlığını istəyən xalq buxovlardan, qollarına vurulmuş köləlik zəncirlərindən azad olub öz haqqını tələb edə bilməsin. Qısası, bu, klassik imperiya üsuludur.

***Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,***
***Qolumdakı zəncirləri qıram gərək***
***Qıram! Qıram!***

Bir xalq üçün azadlıq qismən, dirhəm-dirhəm, qram-qram ola bilməz. Azadlıq qeyd-şərtsiz, heç bir güzəştə gedilmədən tam əldə edilməlidir. 20-ci əsrin sonlarında çürük təməllər, yalançı kommunizm ideologiyası üzərində qurulan sovet imperiyası öz istiqlaliyyəti uğrunda mübarizəyə qalxan Azərbaycan xalqının azadlıq arzusuna tank-topla, pulemyot atəşləriylə cavab verdi. Tanklar üzərində qurulan pulemyotların nişangahında meydanlara çıxaraq xalqının tarixi haqqını tələb edən insanlar deyil, Azərbaycanın parlaq gələcəyi, müstəqilliyi, xalqın özünə inamı, dönməz iradəsi vardı. Əgər həmin gün xalqın iradəsini qırmaq mümkün olsaydı, bir neçə ildən sonra Azərbaycan deyilən ölkənin varlığı da şübhə altına düşəcəkdi. 200 illik imperiya əsarəti dövründə ölkə tarixi torpaqlarının böyük bir hissəsini itirmişdi və əsarət davam edəcəyi təqdirdə yenə də itirəcəkdi. Azərbaycan bölgə-bölgə paylanacaqdı, xalq köçəri vəziyyətə düşəcəkdi. Bu xalqın varlığı həmişə imperiyanı narahat etmişdi. Ancaq əliyalın güllə qabağına çıxanlar hansı tarixi missiyanı daşıdıqlarını yaxşı bilirdilər. Azərbaycan nə olursa-olsun, azad bir ölkəyə çevrilməliydi, xalqın əl-qolunu bağlayan zəncirlər qırılmalıydı. Bu yolda meydanlara çıxan hər kəs ölümə hazır idi.

***Yolumuza işıq saçan şəhidlərim,***
***Azadlığa cığır acan şəhidlərim...***

Milli qürur və fəxarət... Bu gün hər bir Azərbaycan vətəndaşına bu hissləri yaşadan şərəfli keçmişimiz, xalqımızın müstəqil Azərbaycan uğrundakı qətiyyətli, çoxəsrlik mübarizə yoludur.

***Millət yoludur, haqq yoludur tutduğumuz yol,***
***Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!!!***

Bu yola işıq saçanlar şəhidlik zirvəsinə ucalan millət fədailəridir. Azərbaycan naminə tarixin bütün dönəmlərində canlarını fəda edən şəhidlərimiz hər birimizin qəlbində sönməz, əbədi azadlıq məşəli yandırıb. 20 Yanvar şəhidləri də onlar sırasındadır. O şəhidlər ki, ölümün gözünə dik baxaraq azadlıq deyilən şirin nemətə çatmaq yolunu bizə göstərdilər, Vətən üçün ölməyin şərəfli, müqəddəs bir amal olduğunu anlatdılar, azadlığın verilmədiyini, alındığını sübuta yetirdilər. 20 Yanvar hadisələrində, eləcə də birinci Qarabağ müharibəsində, Sədərək uğrunda döyüşlərdə şəhid olanların gələcək nəsillərə mirası üstündə yaşadığımız torpağı, sözün tam mənasında, Vətənə çevirmələridir. Çünki torpaq – uğrunda ölən varsa, Vətəndir! Biz millət yolunda, haqq yolundayıq. Yaşamaq, varlığımızı sürdürmək, azad olmaq əzəli və əbədi haqqımızdır. Qüdrətli dövlətimiz sayəsində indi heç bir qüvvə mənhus düşüncələrini həyata keçirib bizi bu haqdan məhrum edə bilməz. İndi hər bir Azərbaycan vətəndaşı daha qüdrətli, bütöv Azərbaycan naminə hərəkatda var qüvvəsi ilə çalışır, biliyini, bacarığını ortaya qoyur. Çünki gələcək nəsillərə, Azərbaycana bir ZƏFƏR borcumuz var. Əgər belə olmasa, sərhədləri dənizlərə çatan böyük bir ölkə miras qoymuş əcdadlarımızın, bu ölkə uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bizi bağışlamayacaq!

***Tarix danışacaq hünərimizdən,***
***Alqış söyləyəcək nəsillər bizə.***

...O qanlı hadisələrdən 24 il keçir. Azərbaycan indi azad, müstəqil bir dövlətdir. Güclü, düşmənin hər bir həmləsinə layiqli cavab verə biləcək ordumuz var. Azərbaycan səmalarında üçrəngli bayrağımız dalğalanır. O bayraq ki, ötən əsrin əvvəllərində qəhrəman Azərbaycan xalqı onu başı üstə qaldırmışdı. Əsrin sonlarında isə yenə də Azərbaycan övladı onu enməmək üzrə bir daha qaldırdı, ucaltdıqca ucaltdı. O meydanlara toplaşanların hər biri bayrağımızı müqəddəs bilən bayraqdarlara çevrildi; ağır, qanlı-qadalı günlərdə düşmənə qarşı sinəsini siprə çevirən bayraqdarlara. Onlar yaxşı bilirdilər ki, gec-tez bu bayraq Azərbaycanın ən yüksək zirvəsində dalğalanacaq, səmaların bəzəyinə çevriləcək. Və onu da bilirdilər ki, qədirbilən Azərbaycan xalqı onları, azadlıq fədailərini heç bir zaman unutmayacaq, qəlbində yaşadacaq; hər ilin 20 Yanvarında paytaxt Bakıda, Naxçıvanda, Gəncədə, Sumqayıtda, bir sözlə, ölkəmizin hər bir nöqtəsində insanlar onları yad etməyə gələcək, qəhrəmanlıqları qarşısında baş əyəcək, göstərdikləri fədakarlığa alqış deyəcəklər.

***Boy verir ürəkdə hünər nəğməsi,***
***Nəsillər dinləyir bu məğrur səsi.***
***Şəhidlər – Vətənin qələbə rəmzi,***
***Şəhid oğulları Vətən yaşadır!***

**✍ Səbuhi HÜSEYNOV**

## Naxçıvan "Şüşə Qablar" Açıq Səhmdar Cəmiyyəti səhmlərinin əmək kollektivinə güzəştli satışının keçirilməsi haqqında

*Elan*

Naxçıvan "Şüşə Qablar" Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirmə komissiyası əmək kollektivinə güzəştli satışın başlandığını elan edir.

Aşağıdakı şəxslər səhmləri güzəştlə almaq hüququna malikdirlər:

*-əsas iş yeri həmin müəssisə sayılan işçilər;*

*-Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, həmin müəssisədə əvvəlki iş yerinə qayıtmaq hüququ olan şəxslər;*

*-özəlləşdirilən müəssisədə 7 (yeddi) ildən çox çalışmış və həmin müəssisədən təqaüdə çıxmış şəxslər;*

*-1 yanvar 1995-ci il tarixdən sonra işçilərin say tərkibinin ixtisarı nəticəsində işdən azad olmuş və işsiz statusu almış şəxslər.*

Güzəştli satışa sifarişlər cəmiyyətdə fəaliyyət göstərən özəlləşdirmə komissiyası tərəfindən 22 fevral 2014-cü il tarixdən 17 mart 2014-cü il tarixinə kimi qəbul edilir.

Sifarişin verilməsi və güzəştli satışın keçirilməsi haqqında məlumatları səhmdar cəmiyyətin yerləşdiyi ünvandan almaq olar.

Güzəştli satışın yekunlarını təsdiq etmək üçün 17 mart 2014-cü il tarixdə cəmiyyətdə iştirakçıların ümumi yığıncağı keçiriləcək. Güzəştli satışın yekun sənədləri 18 mart 2014-cü il tarixədək Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinə təqdim edilməlidir.

Hər hansı səbəbdən müəyyən edilmiş müddətdə güzəştli satış baş tutmadıqda, həmin səhmlər qanunvericiliyə uyğun olaraq istifadə olunur.

Güzəştli satışda yeganə ödəniş vasitəsi Azərbaycan manatıdır.

| S/s | Səhmdar cəmiyyətin adı | Özəlləşdirməyə qədər müəssisənin tabeçiliyi | Hüquqi ünvanı | İşçilərin sayı (nəfər) | Nizamnamə kapitalının həcmi (manat) | Buraxılmış səhmlərin ümumi sayı (ədəd ) | Güzəştli satışa çıxarılmış səhmlərin sayı (ədəd) | Bir səhmin nominal qiyməti (manat) |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan "Şüşə Qablar" ASC | Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi | Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi | 11 | 343652,00 | 171826 | 25774 | 2,00 |

***İtmişdir***

Məmmədov Çingiz Oruc oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin tərbiyə işləri üzrə prorektoru, professor Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Zakir Rzayevə və Fərman Xəlilova, əzizləri **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Zəhmət Şahverdiyev və kafedranın əməkdaşları Allahverdi Hüseynov, Elçin Zamanov, Xəzər Hüseynov, Nadir Hüseynbəyli və Dağlar Məmmədov Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı Qərib Allahverdiyev və fakültənin kollektivi Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Fəlsəfə və sosial işin təşkili kafedrasının əməkdaşları Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin kollektivi Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Məmməd Rzayevə, anası **XƏDİCƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 77